**Xudiyev H**. 4 nömrəlidən 44 günə // 525-ci qəzet. - 2023. - 18 noyabr. - **№ 209**. - S. 24.

**Azadlığına qovuşduğumuz Xankəndində otuz beş il işğal altında qalmış doğma bir ünvan var - Nizami Gəncəvi adına 4 nömrəli orta məktəb! Bu təhsil ocağı xankəndililər üçün ən əziz, ən doğma bir ocaqdır desək, yanılmarıq. Müəllim və şagirdlərinin, valideynlərinin çeşid-çeşid erməni cinayətlərinə məruz qaldığı bu məktəb tək ona görə əziz deyildir ki, uşaqlıq və gənclik illərimiz burada keçib. Nizami Gəncəvi adına 4 nömrəli orta məktəbi böyük ehtiram və sevgi ilə həm də ona görə sevirik ki, bir zaman onun partalarında əyləşənlər sonralar anamız Azərbaycanın milli maraqları üçün şəhadət şərbəti içərək ölümün gözünə dik baxmağı bacarıblar. Öləcəklərini bilə-bilə ulularımızın yadigarı olan Vətən torpaqlarının yağı əlinə keçməməsi üçün düşmən gülləsinə sinə gəriblər. Vətən var olsun, - deyə canlarından keçiblər. Azərbaycan Ordusunun şəhid mayoru Ruslan Cəfərov kimi.**

Ruslan Gündüz oğlu Cəfərov 1976-cı il noyabrın 19-da Xankəndində hərbçi ailəsində anadan olub.1983-cü ildə Xankəndindəki Nizami Gəncəvi adına 4 nömrəli məktəbdə orta təhsil almağa başlayan Ruslan həyatı bu təhsil ocağında dərk edib. Xalq məhəbbəti, Vətən, torpaq sevgisi orta məktəb illərindən Ruslanın qəlbinə hakim kəsilib. O, Vətənimizin tarixindən, ölkəmizə düşmən tərəfindən törədilən böyük xəyanətlərdən, faciələrdən xəbərdar olub.

Ruslan hərb tariximizə kiçik yaşlarından maraq göstərib, sərkərdələrin həyatlarını, döyüş yollarını öyrənib. Vətən, torpaq, azadlıq uğrunda şəhid olanların xatirəsinə ehtiram göstərib. Qəhrəman oğulların davamçısı olacağına söz verib. Tez-tez atasının Xankəndindəki xidmət etdiyi hərbi hissəyə getməsi, əsgər həyatının incəliklərinə maraq göstərməsi Ruslanı gələcəkdə hərbçi olmağa həvəsləndirib.

Ruslan böyüdükcə qardaşları Asəf və Rəşadla birgə ölkənin müharibə şəraitində yaşadığını, Qarabağımızın ermənilər tərəfindən işğal edildiyinə daim qəlbən acıyıblar. Bir milyondan artıq soydaşımızın dədə-baba yurdundan didərgin düşməsi, hər dəfə cəbhədən gələn şəhid xəbərləri qardaşlarda işğalçı ermənilərə qarşı nifrət hissini daha da artırıb. Beləcə, Ruslan qardaşları ilə birgə həyatlarını qisas eşqi ilə Azərbaycan Ordusuna bağlayıblar. Bundan, Xankəndindəki Nizami Gəncəvi adına 4 nömrəli məktəbdə müəllim işləyən anası Alimə xanım qətiyyən narahat olmayıb. "Oğul Vətən üçündür", - deyə övladlarının hərbçi olmasından daim qürur hissi keçirib.

Beləliklə, Vətən keşiyində dayanan hərbçilərə hələ orta məktəb illərindən rəğbətlə yanaşan Ruslan nümunəvi zabit olmağı, valideynlərinin, ulularının doğma yurdu Xocalıda ermənilər tərəfindən törədilmiş faciələrin qisasını almağı qarşısına məqsəd qoyaraq, "Xocalını mən azad edəcəyəm" deyərək 1993-cü ildə Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinə qəbul olunub.

1997-ci ildə ali hərbi təhsilini bitirdikdən sonra "leytenant" rütbəsi alan Ruslan Cəfərov şərəfli yolun başlanğıcında ilk kövrək addımlarını atıb. Peşəsinin şərəfli və məsuliyyətli olduğunu dərk edərək Vətəni qorumaqdan daim qürur hissi keçirib. Vətən sevgisindən güc alaraq, fəxr edib ki, müqəddəs vəzifə yerinə yetirənlərin sırasındadır.

Ruslan hərbi hissələrdə motoatıcı tağım komandiri, avtomobil xidmət rəisinin köməkçisi, avtomobil xidmət rəisi, tağım komandiri və s. vəzifələrdə xidmət edərkən daim çalışqan, hərb peşəsinin incəliklərinə yaxşı bələd olan, seçdiyi yolda şərəflə, məsuliyyətlə xidmət edən, bilikli və bacarıqlı zabit kimi özünü tanıtdırıb, şərəfli yolda uğurlar qazanıb.

Hərbi xidmət dövründə "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi", "Qüsursuz xidmətə görə" medalları ilə təltif olunan Ruslan Cəfərov mayor rütbəsinədək yüksəlib və 2016-cı ildə həqiqi xidmətdən ehtiyata buraxılıb.

2020-ci il sentyabrın 27-də ölkəmiz Ermənistanın növbəti irimiqyaslı hərbi əməliyyatlara başlamasına, Azərbaycan Ordusunun mövqelərinə və mülki yaşayış məntəqələrinə atəş zərbələri endirməsinə cavab olaraq əks-hücum əməliyyatı kimi Vətən müharibəsinə başlayanda, ehtiyatda olan mayor Ruslan Cəfərov da Vətənin bu ağır günlərində hərbçi qardaşları Asəf və Rəşadla birlikdə silaha sarılıb. O, Azərbaycan Respublikası müdafiə naziri, general-polkovnik Zakir Həsənovun 29 sentyabr 2020-ci ildə imzaladığı əmrlə tabor komandirinin maddi-texniki təminat üzrə müavini vəzifəsində döyüş əməliyyatıarına qatılıb.

Ruslan cəbhəyə yola düşməzdən öncə Şəhidlər xiyabanını ziyarət edib. Doğmalarından ayrılıb yola düşərkən isə həyat yoldaşı Tünzalə xanıma deyib ki, "Başını uca tut ki, mən arxayın gedim. Nə çətinliyiniz olsa, anama deyərsən. Həyatdır, hər şeyə hazır ol, hər şey ola bilər..."

Ruslan Cəfərovun döyüş yolu Füzuli, Hadrut istiqamətlərindən keçib. Əvvəlki illərdə olduğu kimi döyüş tapşırıqlarını icra edəndə də o, peşəkar hərbçi kimi yenə də qorxmazlığı, vətənsevərliyi ilə fərqlənib. Haqq savaşımızın ilk günlərindən o da düşmənə sarsıdıcı zərbələr endirib.

Azərbaycan Ordusunun mayoru Ruslan Cəfərov Vətən müharibəsi zamanı Xocavənd rayonunun Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə qarşısına qoyulmuş növbəti döyüş tapşırıqlarını icra edərkən, ağır yaralanıb. Buna baxmayaraq, o, döyüşçü yoldaşlarını müdafiə etmək üçün al qan içində cəsarətlə erməni silahlılarına qarşı mübarizə aparmaqda davam edib. Əvvəlcə ayağından, sonra isə ciyərindən güllə yarası alan Ruslan Cəfərov Vətən uğrunda gedən döyüşlərdə torpaqlarımızın işğaldan azad olunması, xalqımıza qələbə sevinci yaşatmaq sevdası ilə döyüş bölgəsini tərk etməyib. O, tükənməz vətən sevgisi ilə canından, qanından keçərək 2020-ci il oktyabrın 11-də Hadrut döyüşləri zamanı

şəhidlik zirvəsinə ucalıb. Beləcə, Xankəndindəki Nizami Gəncəvi adına 4 nömrəli məktəbdən qəlbi vətən sevgisi ilə döyünən Ruslanın ömrü 44 günlük Vətən müharibəsində bitib.

2-ci Fəxri xiyabanda dəfn olunan Ruslan Cəfərov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığına və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", , "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilib.